# Xalqa, Vətənə sadiqlik nümunəsi

***1992-ci il oktyabrın 16-da bir qrup ziyalı tarixi zərurətdən, ideoloji-siyasi durumdan yaranan vəziyyətlə əlaqədar olaraq ulu öndər Heydər Əliyevə müraciət ünvanlamışdır***

Azərbaycanın yaxın tarixi keçmişi dahi şəxsiyyət, dünyamiqyaslı siyasətçi, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrdə istər respublikamız sovetlər birliyinin tərkibində olarkən, istərsə də müstəqilliyini bərpa etdikdən sonra ulu öndər ən böhranlı, çətin, mürəkkəb dövrdə məsuliyyəti çiyinlərinə götürərək xalqının, millətinin xilaskarına çevrilmişdir. Mənalı və şərəfli ömrünü millətinin tərəqqisinə, dövlətin inkişafına həsr edən dahi şəxsiyyət müasir tarixin bütün mərhələlərində xalqını üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıq göstərmiş, geniş dünyagörüşü, yüksək intellekti, parlaq zəkası, müdrik liderlik keyfiyyətləri sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən etmişdir. Heydər Əliyev ömür boyu vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşamış, dövlətçiliyimizin qorunub saxlanması, Azərbaycanın dünya birliyində layiqli yer tutması üçün qarşıya qoyduğu ali məqsədlərə doğru irəliləyərkən hər zaman xalqından güc almış, onun dəstəyinə arxalanmışdır. Qətiyyəti, prinsipiallığı, hər zaman, hər yerdə xalqının mövqeyindən çıxış etməsi, onun mənafeyini hər şeydən üstün tutması, yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti dahi lideri ən uca zirvələrə yüksəltmiş, xalqın sonsuz məhəbbətini, etimadını qazandırmışdır.

Ulu öndər deyib: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". Müstəqil Azərbaycanın ağır tarixi imtahanlarda, ən çətin böhranlı günlərində göstərdiyi qətiyyət ulu öndərin bu ifadələrində öz təsdiqini tapır. Tarixin mürəkkəb, ziddiyyətli dönəmlərindən keçmiş xalqımız növbəti dəfə çətin sınaqlarla üz-üzə qalanda yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də məhz bu gerçəklikdən qaynaqlanırdı. Belə ki, o dövrdə respublikamızda dərəbəylik hökm sürür, ölkəmizin əyalətlərə parçalanması prosesi gedir, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Xarici təcavüzlərin və daxili çəkişmələrin qarşısında çıxış yolu tapa bilməyən o zamankı siyasi rəhbərlik isə bu taleyüklü problemi həll etməkdə aciz idi. Bütün bunları yaxşı dərk edən müdrik xalqımız yalnız ümummilli lider Heydər Əliyevin ölkəni düşdüyü bu ağır vəziyyətdən çıxaracağına əmin idi. Azərbaycanın belə çətin anında bir qrup ziyalı onun rəhbərliyi ilə yeni partiya yaratmaq məqsədilə 1992-ci il 16 oktyabr tarixində ulu öndərə müraciət etdilər: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq, Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". Müraciəti imzalayan ziyalılar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Azərbaycan xalqının iztirablarını, ölkənin iflasa və məhvə sürüklənməsi təhlükəsini, həmçinin bununla bağlı bir qrup görkəmli ziyalının müraciətini nəzərə alan Heydər Əliyev 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Böyük şəxsiyyət yaranmış vəziyyətdən çıxış yollarını da müdriklik və uzaqgörənliklə göstərirdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğulur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".

1992-ci il noyabrın 21-də Heydər Əliyevin rəhbərliyi və sədrliyi ilə Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi və ulu öndər yekdilliklə partiyaya Sədr seçildi. Müstəqilliyə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən YAP-ın yaranması tarixi zərurətdən, o illərdə mövcud ideoloji-siyasi durumun doğurduğu milli tələbatdan irəli gəlirdi. Partiyanın yaranması, Heydər Əliyevin partiyaya Sədr seçilməsi respublikanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da ağırlaşmasından irəli gələn tarixi hadisə idi. O zamankı hakimiyyət dairələrinin YAP-ın yaranmasına göstərdikləri manеələr, ardıcıl təzyiqlər müstəqillik yolunu seçən insanların əzm və iradəsini qıra bilmədi. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev YAP-ın VII qurultayında videoformatda çıxışı zamanı bu barədə demişdir: "Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi... O vaxt cəsarət və milli düşüncə göstərmiş, baxmayaraq ki, repressiyalara məruz qalmış vətənpərvər insanlar - məşhur "91-lər" ulu öndərə müraciət ediblər... Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular".

Xalqın ulu öndər Heydər Əliyevə olan tükənməz sevgisi, inamı, etimadı sayəsində Yeni Azərbaycan Partiyası qısa müddət ərzində cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrildi. Uzaqgörən xalqımız dahi şəxsiyyətə arxalanmaqla, onun ətrafında sıx birləşməklə öz gələcəyini təmin etdi. Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis qurultayından cəmi 7 ay sonra Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı. Hakim siyasi partiya - YAP ona göstərilən etimadı doğrultdu, siyasi proseslərin önündə olaraq dövlətimizin inkişafına, yüksəlişinə mühüm töhfələr verdi. Adını xalqımızın dövlətçilik tarixinə müstəqil, demokratik Azərbaycan dövlətinin banisi və lideri kimi həkk edən Heydər Əliyevin düşünülmüş daxili, xarici siyasəti nəticəsində milli inkişaf təmin edildi, respublikada demokratik dövlət quruculuğu, siyasi plüralizm, vətəndaş cəmiyyəti dinamik inkişaf yoluna qədəm qoydu.

Demokratik, hüquqi, dünyəvi dövlət, azad vətəndaş cəmiyyəti qurmaq məqsədilə yaradılan Yeni Azərbaycan Partiyasının sıralarında bu gün etnik mənsubiyyətindən, mövqeyindən asılı olmayaraq minlərlə Azərbaycan vətəndaşı birləşib. Müstəqilliyimizin, suverenliyimizin qorunmasına, ölkəmizin gələcək inkişafına töhfə vermək istəyən insanlar ümummilli lider Heydər Əliyev ideyalarının ziyasında birləşərək azad, suveren Azərbaycanın daha böyük uğurlar, nailiyyətlərlə yeni inkişaf hədəflərinə doğru inamla irəliləməsinə çalışırlar. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev müasir, müstəqil Azərbaycanın memarı, YAP-ın qurucusu olan ümummilli lider Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirərək dahi şəxsiyyətin ideyalarını gerçəkləşdirir. Bu gün sıralarında təşkilatı hakimiyyətdə və parlamentdə təmsil edə biləcək çoxminli fəal və təşəbbüskar gəncləri birləşdirməsi, fəaliyyətini yeni tendensiyalar əsasında davam etdirən, müasir çağırışlara cavab verən Yeni Azərbaycan Partiyasının dünənin, bu günün və gələcəyin partiyası olduğunun təsdiqidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**